www.justice.gov.az

# ƏDLİYYƏ

881 ÇAĞRI MƏRKƏZİ

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı

№ 06 (243) iyun 2024

## MİLLİ QURTULUŞ GÜNÜNDƏN BAŞLAYAN ZƏFƏR TARİXİMİZ

**Tariximizə Milli Qurtuluş Günü kimi yazılan 1993-cü ilin 15 iyunundan bizi 31 illik zaman ayırır. Bu, Azərbaycan xalqı üçün sadəcə, təqvim bayramı deyil, böyük tarixi əhəmiyyətə malik bir gündür. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas oldu, inkişafın sarsılmaz təməlləri qoyuldu.**




Azərbaycan xalqı artıq dörd ildir ki, Milli Qurtuluş Gününü qalib xalq kimi yüksək əhvali-ruhiyyə və milli qürur hissi ilə qeyd edir. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sərkərdəliyi ilə rəşadətli Ordumuz 30 il davam edən işğala 44 gündə son qoydu. Eləcə də uğurlu antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyi tam təmin olundu.

(ardı 2-ci səhifədə)

## Ədliyyə Nazirliyinin kollektivi Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib



**15 iyun Milli Qurtuluş Günü ilə əlaqədar ədliyyə naziri Fərid Əhmədov, nazirliyin rəhbər heyəti və kollektivi Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib.**

Ziyarətçilər Ulu Öndərin məzarı önünə gül dəstələri qoyub, xatirəsini dərin ehtiramla yad ediblr.

Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı önünə gül dəstələri düzülüb.

## Penitensiar xidmətdə qulluğa qəbul olunmuş zabit heyəti ilə görüş

**Ədliyyə naziri Fərid Əhmədovun və Nazirliyin rəhbər heyətinin iştirakı ilə müsabiqələrdə uğur qazanaraq qulluğa qəbul olunmuş əməkdaşlarla görüş keçirilib.**



Tədbirdən öncə xidmətə yeni qəbul olunanlar Fəxri xiyabana gələrək Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar. Həmçinin, Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsini yad etmək üçün Şəhidlər Xiyabanı ziyarət edilib.

Daha sonra müxtəlif vəzifələrdə orta rəis heyətində işə qəbul olunmuş və xüsusi rütbə almış 59 gənc əməkdaşın imzalanmış əmrləri oxunub.

(ardı 5-ci səhifədə)

## Nazir Fərid Əhmədov Zaqatala şəhərində vətəndaşları qəbul edib



**Ədliyyə naziri Fərid Əhmədov 21 iyun tarixində Zaqatala şəhərində yerləşən Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.**

Qəbuldan öncə nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Zaqatala, Şəki, Qax və Balakən rayon sakinlərinin qəbulu zamanı onların ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilir.

Beynəlxalq əməkdaşlığa dair tədbirlər — səhifə 3-4-də

Caza-icra sahəsində fəaliyyət — səhifə 5-6-da

Ədliyyə Akademiyası xəbərləri — səhifə 6-7-də

Reyestr məlumatları — səhifə 7-8-də

# MİLLİ QURTULUŞ GÜNÜNDƏN BAŞLAYAN ZƏFƏR TARİXİMİZ






(əvvəli 1-ci səhifədə)

Yaranmış yeni reallıqlar fonunda Rusiya sülhməramlılarının Qarabağı tərk etməsi və Qazaxın dörd kəndinin azad olunması düşünülmüş siyasətin effektli nəticələridir. Hazırda Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiya və demarkasiya prosesi başlayıb. Qırx dörd günlük Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfər və digər böyük uğurlar öz başlanğıcını məhz Milli Qurtuluş Günündən götürür.

Ulu Öndərin ən böyük arzusu Qarabağı azad, Azərbaycanı bütöv görmək idi. Ümummilli Lider Heydər Əliyevin məcburi köçkünlərlə görüşlərinin birində böyük inam və uzaqgörənliklə söylədiyi bu sözlər yada düşür: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu - biz onlarsız yaşaya bilmərik".

Ulu Öndərin arzuları 27 ildən sonra reallaşdı, Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. Doğurdan da bu gün Ümummilli Liderimizin ruhu şaddır: Azad olunmuş yurd yerlərimiz bərpa edilir, Qarabağa həyat yenidən qayıdır.

1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı dövlətçilik tariximizdə taleyüklü hadisə, şanlı qürur səhifəsidir. Bu tarixi gün, eyni zamanda, Azərbaycanın tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxması, dünya miqyasında müstəqil siyasət yürüdən dövlət kimi tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir. Xalqın çağırışı ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin adı tarixə müstəqilliyimizin xilaskarı və qarantı kimi yazılıb.

XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa edən Azərbaycan böyük təhlükələrlə - parçalanmaq, məhv olmaq, dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə qarşı-qarşıya qalmışdı. 1993-cü ilin iyununda ölkədə hakimiyyət böhranı kulminasiya həddinə çatmışdı, xaos və anarxiya Azərbaycanı uçuruma sürükləyirdi. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı birbaşa hədəfə almışdı. 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Hadisələri düzgün qiymətləndirə bilməyən, başı kreslo davasına qarışan ovaxtkı iqtidar əhali arasında nüfuzunu gündən-günə itirir, hökumət böhranı getdikcə dərinləşirdi.

Cəmiyyətdə ümumi bir fikir yaranmışdı ki, ölkəni düşdüyü bu ağır vəziyyətdən çıxarmağa qadir olan yeganə şəxsiyyət Heydər Əliyevdir. Xalqımız öz dahi oğlunu təkidlə hakimiyyətə dəvət edirdi. 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Naxçıvandan Bakıya gəldi və bir neçə gündən sonra hakimiyyətin sükanı arxasına keçdi. Bu, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu.

Xilaskarlıq missiyasını üzərinə götürən Heydər Əliyev Azərbaycanı real təhlükələrdən qurtarmaqla yanaşı, gələcək inkişaf strategiyasını müəyyənləşdirdi və bu istiqamətdə ilk mühüm addımlar atdı. Onun gərgin fəaliyyəti, səyləri nəticəsində ölkədə ictimai-siyasi sabitlik bərqərar olundu, böyük təhlükə mənbəyi olan qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi, sosial-iqtisadi dirçəlişə yol açan islahatlar başlandı. Gələcəyə, konkret nəticələrə hesablanmış bu siyasət nəticəsində, həmçinin Ermənistan silahlı qüvvələrinin torpaqlarımıza davam edən təcavüzünü dayandırmaq mümkün oldu.

Ümummilli Lider problemlərin həlli üçün, ilk növbədə, bütün səylərini ölkədə vətəndaş həmrəyliyinin, sabitliyin təmin olunmasına yönəltdi və buna nail oldu, gələcək inkişaf üçün möhkəm təməllər yaratmağa başladı. Bu istiqamətdə atılan ilk mühüm addım 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması oldu. Sonrakı dövrdə Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilişinə başlanıldı. Prezident İlham Əliyevin hakimiyyəti dövründə bu transmilli layihələrə Asiyanı Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, Azərbaycan qazını Avropaya çatdıran Cənub Qaz Dəhlizi əlavə edildi.

1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən yeni Konstitusiya qəbul olundu. Eyni zamanda, zəruri islahatlar aparılması üçün normativ-hüquqi bazanın formalaşdırılmasına start verildi. Təfərrüata varmadan demək olar ki, Qurtuluş Günü Azərbaycanın xaosdan, anarxiyadan, hərc-mərclikdən, özbaşınalıqdan, parçalanma təhlükəsindən qurtularaq sabitliyə, əmin-amanlığa, inkişafa qovuşmasının əsasının qoyulduğu, ölkəmizin taleyinin dəyişdiyi gündür.

Azərbaycanın müstəqil dövlət kimi inamlı inkişafını, tarixin ən çətin sınaqlarından uğurla çıxmasını təmin edən Ulu Öndər Heydər Əliyev, sözün əsl mənasında, xilaskar və qurucu Lider rolunu oynadı. Mübaliğəsiz demək olar ki, müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin şah əsəridir. Bu əsərin təməl daşının qoyulduğu gün - 15 İyun tariximizin ən parlaq səhifələrindən biridir.

Ümummilli Liderin xalqımız və dövlətçiliyimiz qarşısında ən mühüm xidmətlərindən biri sonrakı dövrdə də Azərbaycanın tərəqqi yolunda əmin addımlarla irəliləməsini təmin edəcək layiqli varis yetişdirməsidir. Ulu Öndərin ideyalarını uğurla həyata keçirən Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində ölkəmiz dinamik inkişaf edir, dünya siyasi arenasında layiqli yer tutur, milli maraqlarımız bütün səviyyələrdə qətiyyətlə qorunur. Azərbaycan qüdrətli, öz prinsipial mövqeyi olan, müstəqil siyasət yeridən ölkə kimi tanınır.

Son illər Azərbaycan Heydər Əliyev ideyalarının işığında böyük inkişaf yolu keçib, arzu və xəyallarımız reallığa çevrilib. Bugünkü Azərbaycan Ulu Öndərin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyünü və suverenliyi təmin olunmuş ölkədir. Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasında yer alır, texniki təchizat baxımından bir çox ölkələrin ordularını üstələyir. Azərbaycanın Vətən müharibəsi, xüsusən misilsiz Şuşa əməliyyatı dünyanın aparıcı ölkələrinin hərbi məktəblərində öyrənilməkdədir.

Vətən müharibəsindəki Zəfərimiz bölgədə yeni reallıqlar yaradıb. Dünyanın bir çox dövlətləri və güc mərkəzləri bu reallıqları qəbul edir, onunla hesablaşır. Azərbaycan post-müharibə dövrünün gündəliyini diktə edir. Prezident İlham Əliyev quruculuq işində də sonsuz qətiyyət və əzmkarlıq nümayiş etdirir. İşğaldan azad edilmiş ərazilərdə zəruri infrastruktur obyektləri ilə paralel olaraq, yaşayış kompleksləri də tikilib istifadəyə verilir, yenilərinin təməli qoyulur. İndiyədək yüzlərlə ailə doğma yurda qayıdıb, azad olunmuş ərazilərə yaxın üç ildə 140 min insanın köçürülməsi nəzərdə tutulur. Azad olunmuş torpaqlarda aparılan möhtəşəm bərpa-quruculuq işlərinin təməlində Heydər Əliyevin ideyaları, inkişaf strategiyası dayanır.

Xalqımız əmindir ki, Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan gələcəkdə də böyük uğurlar qazanacaq, öz qüdrətini daha da artıracaq. Çünki ölkəmizin İlham Əliyev kimi qətiyyətli, güclü siyasi iradəyə malik, xalqının və dövlətinin maraqlarını əzmlə, cəsarətlə müdafiə edən Prezidenti var.

Azərbaycan tarixinin Heydər Əliyev zirvəsi illər ötdükcə daha aydın görünür. Qədirbilən xalqımız öz böyük oğlunun misilsiz xidmətlərini daim minnətdarlıq hissi ilə xatırlayır. Heydər Əliyevin ideyaları Azərbaycanı zirvədən-zirvəyə, qələbədən-qələbəyə aparmaqdadır.

**AZƏRTAC**

*Beynəlxalq əməkdaşlığa dair tədbirlər*

# "TÜRK DÖVLƏTLƏRİNİN HÜQUQ TƏTBİQETMƏ FƏALİYYƏTLƏRİNDƏ RƏQƏMSALLAŞMA VƏ İNTEQRASİYA" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS







**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Baş Prokurorluğu tərəfindən Türk Ədliyyə Təlim Şəbəkəsinin fəaliyyəti çərçivəsində "Türk Dövlətlərinin hüquq tətbiqetmə fəaliyyətlərində rəqəmsallaşma və inteqrasiya" mövzusunda beynəlxalq konfrans keçirilib.**

Konfransın açılış mərasimində ədliyyə naziri Fərid Əhmədov, Baş prokuror Kamran Əliyev, Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov, Türk Akademiyasının prezidenti Şahin Mustafayev və Türk Dövlətləri Təşkilatının Baş katibinin müavini Sədi Cəfərov iştirak ediblər.

4-5 iyun tarixlərində Bakı şəhərində keçirilən konfransda Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Şimali Kipr Türk Respublikasından 30-a yaxın nümayəndə iştirak edib. Konfrans müasir dünyanın çağırışlarına və "Türk Dünyasına Baxış 2040" sənədinin məqsədlərinə uyğun olaraq türk dövlətlərində müasir informasiya texnologiyalarının hüquqi sahədə tətbiqi və istifadəsinin genişləndirilməsi imkanlarının müzakirə edilməsinə yönəlib.

Türk dövlətləri arasında əməkdaşlığın miqyasının genişlənməsi, gələcək inteqrasiya hədəfləri üzrə fəaliyyətlərin gücləndirilməsi, xüsusilə də ölkələrin iqtisadi və mülki qanunvericilik sistemlərinin yaxınlaşdırılması məqsədilə Türkiyə Ədliyyə Akademiyası və Qazaxıstan Respublikası Ali Məhkəməsi yanında Ədliyyə Akademiyasının rektorlarının, Özbəkistan Respublikasının Məhkəmə-Hüquq Şurası yanında Ali Hakimlər Məktəbinin direktorunun da iştirakı ilə keçirilən konfrans, Türk dövlətlərinin ədliyyə işçilərinin, hakimlərin və prokurorların təlimi ilə məşğul olan qurumların nümayəndələrini, praktiki hüquqşünasları, hüquqşünas alimləri və elm müəssisələrini bir araya gətirib.

2 gün davam edən konfransda Türk dövlətlərində məhkəmə, eləcə də prokurorluq sistemlərində elektron informasiya texnologiyalarından istifadə, ölkələrin mülki qanunvericiliyinin təhlili və yaxşılaşdırılması, hakim və prokurorların tədrisində elmi tədqiqatların və tədrisin təşkil olunmasında elektron texnologiyaların rolu mövzularında panel sessiyalar və müzakirələr keçirilib.

Qeyd edək ki, Türk Ədliyyə Təlimi Şəbəkəsi 12 dekabr 2022-ci il tarixli İstanbul Anlaşma Memorandumu əsasında Türk Dövlətləri Təşkilatına daxil olan ölkələri təmsil edən 11 ixtisaslaşmış tədris qurumu tərəfindən təsis edilib. Şəbəkənin ilk həmsədri 2023-cü ildə Türkiyə Ədliyyə Akademiyası olub. Ötən ilin 28 dekabr tarixində növbəti il üçün həmsədrliyin Azərbaycana verilməsi barədə qərar yekdilliklə qəbul olunub. Hal-hazırda Ədliyyə Akademiyası və Baş Prokurorluğun Elm-Tədris Mərkəzi Şəbəkənin 2024-cü il üzrə həmsədrləridir.



*Beynəlxalq əməkdaşlığa dair tədbirlər*



# Türk Ədliyyə Təlim Şəbəkəsinə daxil olan ölkələrin nümayəndə heyəti ilə görüş

**Ədliyyə naziri Fərid Əhmədov "Türk Dövlətlərinin hüquq tətbiqetmə fəaliyyətlərində rəqəmsallaşma və inteqrasiya" mövzusunda keçirilən beynəlxalq konfrans çərçivəsində ölkəmizdə səfərdə olan Türk Ədliyyə Təlim Şəbəkəsinə daxil olan ölkələrin nümayəndə heyəti ilə görüşüb.**

Qonaqları salamlayan ədliyyə naziri onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Fərid Əhmədov ölkələr arasında hüquq tətbiqetmə sahəsində çoxtərəfli əməkdaşlığın daha da gücləndirilməsi üçün keçirilən konfransın rolunu yüksək qiymətləndirdiyini qeyd edib.

Nazir, həmçinin ədliyyə sahəsində elmi istiqamətdə, eləcə də peşəkar kadrların hazırlanması üzrə əməkdaşlığın vacibliyini və bu sahədə ədliyyə akademiyalarının rolunun önəmli olduğunu vurğulayıb. Fərid Əhmədov ölkəmizdə Ədliyyə Akademiyasının fəaliyyətinin daha da inkişaf etdirilməsi istiqamətində işlər görüldüyünü, innovativ layihələrin icrasının nəzərdə tutulduğunu bildirib.

Görüşdə iştirak edən nümayəndə heyətinin üzvləri konfransın yüksək səviyyədə təşkil edildiyini və bu konfransın qardaş türk dövlətləri arasında sahə üzrə təcrübə mübadiləsinin həyata keçirilməsi üçün vacib platforma olduğunu qeyd edib. Onlar hüquq tətbiqetmə sahəsində çoxtərəfli əməkdaşlığın gücləndirilməsinin türk dövlətləri üçün gələcəkdə daha faydalı və səmərəli olacağını vurğulayıb.

Görüşdən sonra nümayəndə heyəti nazirlikdə ədliyyə tarixinə həsr olunan muzeylə tanış olub.

# PAKİSTANIN AZƏRBAYCANDA SƏLAHİYYƏT MÜDDƏTİ BAŞA ÇATAN SƏFİRİ İLƏ GÖRÜŞ

**Ədliyyə naziri Fərid Əhmədov Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bilal Haye ilə görüşüb.**

Görüşdə Azərbaycanla Pakistan arasında strateji tərəfdaşlıq səviyyəsində əməkdaşlıqdan razılıq ifadə olunub və ölkələr arasında hüquqi sahədə, o cümlədən ekstradisiya və məhkumların verilməsi üzrə sıx əməkdaşlığın mövcud olduğu vurğulanıb. Həmçinin təcrübə və bilik mübadiləsi üçün ikitərəfli əlaqələrin genişləndirilməsi imkanlarının mövcudluğu xüsusi qeyd olunub. Görüşdə bildirilib ki, iki ölkə arasında ədliyyə sahəsində müqavilə-hüquq bazasının daha da genişləndirilməsi gündəmdədir.

Bilal Haye səfirlik ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi arasında yaxşı işgüzar əlaqələrin olduğunu bildirib. Səfir səmimi qəbula görə öz minnətdarlığını ifadə edib və ölkəmizdən xoş təəssüratlarla ayrıldığını, Azərbaycanın daim dostu olaraq qalacağını vurğulayıb.

Nazir diplomata gələcək fəaliyyətində uğurlar arzulayıb.



# Ədliyyə Nazirliyinin nümayəndə heyəti Peterburq Beynəlxalq Hüquq Forumunda iştirak edib







**Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Ədliyyə Akademiyasının rəhbər vəzifəli şəxsləri Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilmiş XII Peterburq Beynəlxalq Hüquq Forumunda iştirak ediblər.**

Forumdan öncə nümayəndə heyətləri Çar imperiyasında müasir cəza-icra sisteminin əsasını qoymuş və 1879-1896-cı illər ərzində Baş həbsxana idarəsinin ilk rəhbəri olmuş Mixail Nikolayeviç Qalkin-Vraskoyun abidəsinin açılış mərasimində iştirak ediblər.

Rusiya Federasiyası Prezidentinin və Ədliyyə Nazirliyinin dəstəyi ilə keçirilən Forum 9 tematik paneldən və 120-dən çox tədbirdən ibarət olub. Forum iştirakçıları normayaratma fəaliyyətinin aktual sahələri, beynəlxalq hüququn müasir şəraitə uyğunlaşdırılması, mübahisələrin həlli üsullarının təkmilləşdirilməsi, hüquq sahəsində innovasiya və texnologiyaların tətbiqi və hüquqi təhsil sisteminin təkmilləşdirilməsi kimi mövzuları müzakirə ediblər.

Forum çərçivəsində Azərbaycan nümayəndə heyəti ilə Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin direktoru, daxili xidmət generalı Arkadiy Qostev arasında ikitərəfli görüş keçirilib.

Cəzaların icrası və bu sahədə beynəlxalq əməkdaşlığın inkişafı məsələlərinə dair təşkil edilmiş sessiyada iştirakçı ölkələrin təcrübələrinə əsaslanan müxtəlif mövzularda çıxışlar dinlənilib və müzakirələr aparılıb. Residiv cinayətlərin profilaktikası barədə Azərbaycan Respublikasının təcrübəsi haqqında məlumatlar sessiya iştirakçılarının diqqətinə çatdırılıb.

Nümayəndə heyəti həmçinin Forumun "Hüquq - qlobal tarazlığın əsasıdır" mövzusunda keçirilmiş plenar iclasında iştirak edib, konqres-sərgi mərkəzində təşkil edilmiş sahibkarların və dövlət orqanlarının stendlərindən ibarət sərgiyə baxış keçirib.

Səfər çərçivəsində nümayəndə heyəti Cəzaların İcrası Federal Xidmətinin Leninqrad vilayəti və Sankt-Peterburq şəhəri üzrə 1 saylı istintaq təcridxanasına da baş çəkib, müasir tələblərə cavab verən müəssisədə saxlanma şəraiti və xidmətin təşkili ilə tanış olub.

*Cəza-icra sahəsində fəaliyyət*



# Penitensiar xidmətdə qulluğa qəbul olunmuş zabit heyəti ilə görüş

(əvvəli 1-ci səhifədə)

Tədbirdə çıxış edən nazir Fərid Əhmədov ədliyyə sistemində aparılan ardıcıl islahatlara toxunaraq penitensiar sistemin və infrastrukturun müasirləşdirilməsi, rəqəmsallaşma və yeni innovativ texnologiyaların tətbiqi üzrə həyata keçirilən tədbirlərdən danışıb. Aparılan islahatların həmçinin kadr seçimi prosesini də əhatə etdiyini qeyd edib.

Nazir vurğulayıb ki, bütün dövlət qurumlarında olduğu kimi, ədliyyə orqanlarında da işə qəbul zamanı gənc kadrlara böyük üstünlük verilir, aşkarlıq şəraitində açıq müsabiqələr keçirilərək Nazirliyin kadr korpusunun Vətənə sədaqəti, yüksək şəxsi keyfiyyətləri və peşəkarlığı ilə seçilən gənc mütəxəssislərlə möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür.

Penitensiar xidmətdə qulluğun xüsusiyyətlərinə toxunan nazir Prezident İlham Əliyevin insanlara layiqli xidmət göstərilməsi, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması ilə bağlı tapşırıqlarınının hər zaman diqqətdə saxlanılmasının vacibliyini qeyd edib.

Fərid Əhmədov xidmətə yeni başlayan ədliyyə işçilərinə məsuliyyətli olmalarını, qanunçuluq, insan hüquqları, humanizm prinsiplərinə, nizam-intizama və etik davranış qaydalarına dönmədən əməl etmələrini vurğulayıb, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra qulluğa yeni qəbul olunmuş əməkdaşların andiçmə mərasimi keçirilib.

Sonda nazir Fərid Əhmədov gənc əməkdaşlara xidməti vəsiqələrini və zabit rütbələrini təqdim edib.





# Penitensiar xidmət ilə Vəkillər Kollegiyası arasında görüş

**Ədliyyə Nazirliyi Penitensiar xidmətin rəhbərliyi ilə Vəkillər Kollegiyasının rəhbər heyəti arasında birgə fəaliyyətin təşkili ilə bağlı görüş keçirilib.**




Görüşdə ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Mirsaleh Seyidov qonaqları salamlayaraq, ədliyyə naziri Fərid Əhmədovun tapşırığına əsasən həbs edilmiş şəxslərin və məhkumların hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində Vəkillər Kollegiyası ilə sıx əməkdaşlığın həyata keçirildiyini qeyd edib.

Vəkillər Kollegiyasının hər zaman məhkumların hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində əməli addımlar atdığını bildirən nazir müavini həbs edilmiş şəxs və məhkumlara peşəkar hüquqi yardımın göstərildiyini, hüquqi maarifləndirmə istiqamətində müxtəlif cəzaçəkmə müəssisələrində mütəmadi tədbirlərin həyata keçirildiyini, təşkil edilən hüquqi yardım tədbirləri zamanı məhkumlara mülki və cinayət qanunvericiliyinin müddəalarının ətraflı izah edildiyini qeyd edib.

Qəbula görə ədliyyə naziri Fərid Əhmədova və nazir müavini Mirsaleh Seyidova minnətdarlığını ifadə edən Vəkillər Kollegiyasının sədri Anar Bağırov hər iki qurum arasında ilk dəfə bu cür səmərəli görüşün keçirildiyini vurğulayıb, son dövrlər Kollegiyada görülən işlərdən söz açıb, hüquqşünasların vəkilliyə marağının artdığını, o cümlədən Penitensiar xidmətdə aparılan mühüm islahatları xüsusi qeyd edib.

Vəkillərin əsas vəzifəsinin insanlara keyfiyyətli hüquqi yardım göstərməkdən ibarət olduğunu diqqətə çatdıran Anar Bağırov məhkumların qarşılaşdığı hüquqi problemlərin həlli istiqamətində bundan sonra da zəruri tədbirlərin görüləcəyini bildirib. Görüşdə gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub, mövcud imkanlar qiymətləndirilib. Tərəflər arasında növbəti illərdə məhkumlara ödənişsiz hüquqi yardımın göstərilməsi, eyni zamanda, Kollegiyanın Qadın Vəkillər Alyansı ilə qadın məhkumların saxlanıldığı 4 saylı cəzaçəkmə müəssisəsi arasında birgə tədbirlərin təşkili məsələləri müzakirə edilib.

Sonda qonaqlar Penitensiar xidmətin Baş idarəsinin inzibati binası ilə, eləcə də muzeydə Ulu Öndər Heydər Əliyev və Zəfər şəhidlərinin xatirə guşələri ilə tanış olublar.

*Cəza-icra sahəsində fəaliyyət*

# 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar tədbir keçirilib



**1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür. Dünyanın əksər ölkələrində olduğu kimi, bu gün Azərbaycanda da qeyd edilir.**

**Ölkəmizdə uşaqların müdafiə olunması və onlara qayğı göstərilməsi istiqamətində çoxsaylı işlər görülür. Uşaqların sosial və hüquqi müdafiəsi ilə bağlı məsələlər Konstitusiya, qanunverici və normativ-hüquqi aktlarla tənzimlənir.**

Prezident İlham Əliyevin sosial sahəyə xüsusi qayğısı ölkəmizdə uşaqların müdafiəsi, sosial təminat və reabilitasiya sistemi ilə əhatə olunmaları, uşaq qayğı sisteminin inkişafı istiqamətində də tədbirlərin ildən-ilə gücləndirilməsinə imkan verir.

Cəmiyyətimizin həssas qrupu olan uşaqların müdafiəsi və inkişafı çərçivəsində yetkinlik yaşına çatmayan məhkumların hüquqlarının qorunması da daim diqqət mərkəzindədir. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq məhkumların və təqsirləndirilən şəxslərin hüquqlarının etibarlı təmin olunmasına Ədliyyə Nazirliyi tərəfindən xüsusi diqqət göstərilir. Belə ki, nazir Fərid Əhmədov qadınların və yeniyetmə məhkumların cəza çəkdikləri penitensiar müəssisələrə baş çəkib, onlarla görüşüb, saxlanma şəraiti ilə tanış olub, öz tövsiyə və tapşırıqlarını verib.

Hər il olduğu kimi, bu il də Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Ədliyyə Nazirliyi Penitensiar xidməti tərəfindən bayram tədbiri keçirilib. 4 saylı cəzaçəkmə müəssisəsində açıq qapı günü çərçivəsində cəza çəkən məhkum qadınların övladları ilə görüşü təşkil olunub.

Tədbirdə Ədliyyə naziri Fərid Əhmədovun təbriki oxunub. Tədbir iştirakçıları tərəfindən bu günün əhəmiyyəti, eləcə də ölkəmizdə qeyd olunması və həyata keçirilən işlər barədə çıxışlar edilib.

Tədbir konsert proqramı ilə davam edib, məhkumların ifasında mahnılar dinlənilib, rəqslər edilib. Animasiya qəhrəmanlarının iştirakı ilə uşaqlara musiqili şoular təqdim olunub, əyləncə attraksionları təşkil edilib.

Bayram şənliyi böyük maraq və sevinc hissi ilə qarşılanıb.









*Ədliyyə Akademiyası xəbərləri*

ƏDLİYYƏ AKADEMİYASI

# Ədliyyə Akademiyasında

**Cari ilin iyun ayında Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası tərəfindən ədiyyə və məhkəmə aparatı işçiləri, hakimlər, vəkillər, bələdiyyə üzv və qulluqçuları üçün müxtəlif aktual mövzularda təlim və ixtisasartırma kursları keçirilib.**

Akademiyada Nazirliyin aparatı və onun struktur bölmələrinin idarə rəhbərləri və müavinləri üçün keçirilən "Elektron Sənəd Dövriyyəsinin yeni sisteminin istifadə qaydaları" mövzusunda təlimdə elektron sənədin texniki və proqram vasitələrinin köməyi ilə yaradılması, saxlanılması, emal edilməsi, ötürülməsi, qəbul edilməsi və. s barədə ətraflı məlumat verilib. Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, onların rəy və təklifləri dinlənilib.

Penitensiar Xidmətin, Ədliyyə Akademiyasının və Məhkəmə Ekspertizası Mərkəzinin əməkdaşları, həmçinin icra və probasiya məmurları üçün keçirilən "Ədliyyə işçiləri tərəfindən uşaqların hüquqlarının müdafiəsi və uşaqyönümlü yanaşma" mövzusunda təlimdə isə yetkinlik yaşına çatmayan şəxslərlə



davranış formaları, uşaqla ünsiyyətin qaydaları, azyaşlıların hüquqlarının müdafiəsi istiqamətində görülən tədbirlər və. s barədə ətraflı məlumat verilib, fikir mübadiləsi aparılaraq maraq doğuran suallara aydınlıq gətirilib.

Bundan əlavə, Nazirliyin aparatı, onun strukturuna daxil olan qurumlar və regional ədliyyə idarələrinin əməkdaşları üçün "Ədliyyə qurumlarında informasiya təhlükəsizliyinin gücləndirilməsi tədbirləri" mövzusunda təlim keçirilib. Təlimdə informasiya təhlükəsizliyinə yönəlmiş təhlükələr, dövlət səviyyəsində informasiya təhlükəsizliyi, parola hücum üsulları, parolun təhlükəsizliyinin təmini, informasiya təhlükəsizliyinin təmin edilmə üsulları, şəbəkələrdə informasiyanın müdafiə probleminin həlli yolları, əməliyyat sisteminin təhlükəsizliyinin təmin edilməsi problemləri və. s barədə ətraflı məlumat verilib.

Akademiyada 16 hakimin iştirakı ilə "Hakimlik fəaliyyətində stress faktoru və onun idarə olunması" mövzusunda təlim keçirilib. Kursda stresin mahiyyəti, yaranma səbəbləri, tükənmişlik, yorğunluq, emosional yanma sindromu, hakimlik fəaliyyətində stresin diaqnostikası və stresə davamlılığın müəyyən edilməsi, stress əlamətlərini tanımaq, işgüzar münasibətlərdə stress faktoru, fərdi şəkildə stresin öhdəsindən gəlmək tərzi, stresədavamlılıq, insanın stresli situasiyalara adaptasiya olunması modeli, stresin öhdəsindən gəlmək üçün resurslar və stresin profilaktikası, kopinq-strategiya, emosiya və stress,



özünütənzimləmə metodları: nəfəsalma, relaksasiya, vizuallaşdırma, meditasiya, autotreninq və s. barədə məsələlərə toxunulub.

28 nəfər hakimin iştirak etdiyi "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi" mövzusunda təlimdə əmlakın leqallaşdırılması cinayətinin tövsifi və MMX məlumatlarından istifadə ilə bağlı MONEYVAL tərəfindən müəyyən olunan çatışmazlıqlar və irəli sürülən tövsiyələr, əmlakın leqallaşdırılması əməlinin beynəlxalq standartlara uyğun şəkildə tövsifi zamanı konstitusion hüquqların təmin edilməsi, əmlakın leqallaşdırılması və əlaqəli predikativ cinayətlərin sübut edilməsi zamanı hüquq mühafizə orqanları tərəfindən MMX məlumatlarından istifadənin əhəmiyyəti və s. barədə mövzular tədris olunub.

Hakimlər üçün keçirilən növbəti ixtisasartırma kursu "Məhkəmə ekspertizası fəaliyyətində aktual məsələlər" mövzusuna həsr olunub. 70 nəfərin iştirak etdiyi kursda ekspertiza təyin edilərkən növ və ixtisasın düzgün seçilməsi, həmin növ və ixtisaslara uyğun sualların qoyulması, məhkəmə-mühasibat ekspertizası qarşısında qoyulan sualların həll edilməsi üçün zəruri olan sənədlər, məhkəmə-yerquruluşu tədqiqatına dair ekspertiza qarşısında qoyulan bir qisim suallar üzrə aparılan müqayisəli tədqiqat, məhkəmə tikinti-texniki ekspertizası üzrə iş materiallarının rəy verilmədən geri qaytarılmasının səbəbləri, maşına dəymiş ziyanın müəyyən edilməsi üzrə təyin ekspertizaların icrası və s. barədə məsələlərə toxunulub.

Akademiyada hakimlər üçün həmçinin, "Elektron məhkəmə" informasiya sistemi" mövzusunda onlayn formada ixtisasartırma kursu təşkil edilib. İştirak edən 24 hakimə "Elektron Məhkəmə" informasiya sistemi, AzFemida və videokonfrans alt sistemləri, məhkəmə işlərinin təsadüfi paylanması alt sistemi, süni intellekt əsasında məhkəmə qərarlarının anonimləşdirilməsi alt sistemi, yekun məhkəmə qərarlarının vahid bazası və s. barədə mövzular tədris olunub.

Kommersiya məhkəmələri aparatının işçiləri üçün keçirilən "Məhkəmə icraatı və fəaliyyətinin təşkilində məhkəmə işçilərinin rolu" mövzusunda təlimdə məhkəməyə daxil olan işlərin mümkünlüyü məsələsi və işlərə nəzarət, "Elektron məhkəmə" informasiya sistemindən istifadə qaydaları, məhkəmə iclaslarının təşkili və məhkəmə sənədlərinin tərtibi, məhkəmə aktlarından şikayət və məhkəmə aktlarının icrası və s. barədə məsələlərə toxunulub.

Məhkəmə aparatı işçiləri üçün "Dövlət qulluqçularının əmək münasibətlərində Azərbaycan Respublikasının Əmək Məcəlləsinin tətbiqi qaydaları" mövzusunda keçirilən təlimdə əmək hüququ, qadınların əmək hüququ və onun həyata keçirilməsində təminatlar, yaşı 18-dən az olan işçilərin əməyindən istifadənin xüsusiyyətləri, pensiya təminatı və s. barədə məsələlər tədris olunub. "Vərəsəlik münasibətlərinin hüquqi tənziminin nəzəri və təcrübi problemləri" mövzusunda təlimdə isə qanun üzrə vərəsəlik, vəsiyyət üzrə vərəsəlik, məhkəmə tərəfindən vərəsəlik hüququndan məhrum edilmə halları, vərəsəlik hüququndan məhrum edilmiş şəxsin miras payı, mirasın açılması və s. barədə məsələlərə toxunulub.

Təlimlərdə ümumilikdə 94 nəfər məhkəmə aparatı işçisi iştirak edib.

Ədliyyə Akademiyası həmçinin, Vəkillər Kollegiyasının üzvləri üçün "Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət və Avropa İnsan hüquqları Konvensiyasının 6-cı maddəsi (Ədalətli məhkəmə araşdırması hüququ)" mövzusunda ixtisasartırma kursu keçirib.

51 nəfər vəkilin iştirak etdiyi kursda Avropa İnsan





Hüquqları Məhkəməsinə müraciət, ərizənin doldurulması qaydası, cinayət törətməkdə ittiham olunanların təqsirsizlik prezumpsiyası və onların digər hüquqları və s. barədə məsələlərdən danışılıb. Sonda vəkilləri maraqlandıran suallar cavablandırılıb və müzakirələr aparılıb.

48 nəfər bələdiyyə üzvü və qulluqçusu üçün keçirilən təlimlərdə isə korrupsiya hüquqpozmalarına şərait yaradan halların qarşısının alınmasının və etik davranış qaydalarına riayət edilməsinin yerli özünüidarəetmənin həyata keçirilməsində əhəmiyyəti, insan hüquq və azadlıqlarının təmin olunmasında bələdiyyələrin rolu və s. barədə mövzular tədris olunub.

Ədliyyə Akademiyasında sahibkarlıq subyektlərinin iştirakı ilə də təlim keçirilib. 15 nəfərin iştirak etdiyi təlimdə sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi, yoxlamaların vahid məlumat reyestrinin yaradılması zərurəti və məqsədi, sahibkarlıq sahəsində yoxlamaların aparılması ilə bağlı sui-istifadə və korrupsiya hallarının qarşısının alınması, mediasiya işinin təbliği və KOB subyektləri arasındakı mübahisələrdə mediasiya fəaliyyətinin tətbiqi, əmək hüququnun əsas anlayışları və əmək müqaviləsi və s. barədə mövzularda mühazirələr dinlənilib.

# QEYRİ-KOMMERSİYA TƏŞKİLATLARININ REYESTR MƏLUMATI

### "Oğuz" müstəqil araşdırmaçılar qrupu ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.12.2012-ci il
**Qeydiyyat №-si:** 1112-Q39-3027
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Bayramlı Ceyhun Məhəmməd oğlu olmuşdur
**Dəyişiklik:** 03.06.2024-cü il tarixdə qeydə alınıb

### "Sən Tək Deyilsən" Gənc Əlil Qızlara Yardım ictimai birliyi

**Qeydiyyat tarixi:** 07.06.2004-cü il
**Qeydiyyat №-si:** 1104-Q2-1578
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Səlimova Şəlalə Cəfər qızı olmuşdur
**Dəyişiklik:** 03.06.2024-cü il tarixdə qeydə alınıb

### "Qarabağ Müharibəsi Veteranlarına Yardım" ictimai birliyi

**Qeydiyyat tarixi:** 24.12.2008-ci il
**Qeydiyyat №-si:** 1108-Q24-2639
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Həsənov Elşad Şahvedi oğlu olmuşdur
**Dəyişiklik:** 03.06.2024-cü il tarixdə qeydə alınıb

### "Sabah Peşəkar İdman Klubu" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.06.2018-ci il
**Qeydiyyat №-si:** 1118-Q63-3594
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Hüseynov Yaqub Valeh oğlu olmuşdur
**Dəyişiklik:** 03.06.2024-cü il tarixdə qeydə alınıb

### "Neftçi İdman Klubu" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.11.2013-cü il
**Qeydiyyat №-si:** 1113-Q47-3231
Birliyin ümumi yığıncağının protokolları və digər sənədlərə əsasən qanuni təmsilçisi Zeynalov Hafiz Ziyafət oğlu olmuşdur
**Dəyişiklik:** 03.06.2024-cü il tarixdə qeydə alınıb

### "Azərbaycan turizm blogerləri assosiasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 05.10.2020-ci il
**Qeydiyyat №-si:** 1120-Q74-3857
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Qəribov Azər Şaiq oğlu olmuşdur
**Dəyişiklik:** 03.06.2024-cü il tarixdə qeydə alınıb

### "Regionlarda Gender Bərabərliyinin Təbliği" ictimai birliyi

**Qeydiyyat tarixi:** 28.10.2010-cu il
**Qeydiyyat №-si:** 1110-Q33-2888
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Həsənova Aytəkin Tahir qızı olmuşdur
**Dəyişiklik:** 03.06.2024-cü il tarixdə qeydə alınıb

### "Davamlı inkişaf uğrunda" ictimai birliyi

**Qeydiyyat tarixi:** 31.03.2004-cü il
**Qeydiyyat №-si:** 1104-Q2-1522
Birliyin ümumi yığıncağının protokolundan çıxarış və digər sənədlərə əsasən qanuni təmsilçisi Hüseynov Sakit Yəhya oğlu olmuşdur
**Dəyişiklik:** 03.06.2024-cü il tarixdə qeydə alınıb

### "Hüquq və İnkişaf" ictimai birliyi

**Qeydiyyat tarixi:** 31.05.2005-ci il
**Qeydiyyat №-si:** 1105-Q4-1751
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Həsənov Hafiz Bəşir oğlu olmuşdur
**Dəyişiklik:** 04.06.2024-cü il tarixdə qeydə alınıb

### "İnkişaf" yerli özünüidarəetmənin təşviqi ictimai birliyi

**Qeydiyyat tarixi:** 31.10.2017-ci il
**Qeydiyyat №-si:** 1117-Q60-3527
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Tağızadə Kənan Şahin oğlu olmuşdur
**Dəyişiklik:** 04.06.2024-cü il tarixdə qeydə alınıb

### "Gənclər və Ekologiya" ictimai birliyi

**Qeydiyyat tarixi:** 19.03.2009-cu il
**Qeydiyyat №-si:** 1109-Q26-2700
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Xələfov Rəşadət Miri oğlu olmuşdur
**Dəyişiklik:** 04.06.2024-cü il tarixdə qeydə alınıb

### "Ortaq Dəyərlər" ictimai birliyi

**Qeydiyyat tarixi:** 24.12.2008-ci il
**Qeydiyyat №-si:** 1108-Q24-2651
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Camal Aqil Tapdıq oğlu olmuşdur
**Dəyişiklik:** 07.06.2024-cü il tarixdə qeydə alınıb

**"Dünya Türk Gəncləri Birliyi" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 29.01.2010-cu il
**Qeydiyyat №-si:** 1110-Q30-2800
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Abdullayev Tural Əkrəm oğlu olmuşdur
**Dəyişiklik:** 07.06.2024-cü il tarixdə qeydə alınıb

**"Gülüstan" kimsəsiz uşaq və qadınlara yardım ictimai birliyi**

**Qeydiyyat tarixi:** 02.07.2008-ci il
**Qeydiyyat №-si:** 1108-Q22-2543
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Aktuz Vəfa Sadıx qızı olmuşdur
**Dəyişiklik:** 07.06.2024-cü il tarixdə qeydə alınıb

**"Qloballaşan Dünyaya İnteqrasiya" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 30.03.2008-ci il
**Qeydiyyat №-si:** 1108-Q21-2511
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Ağayeva Selcan İlkin qızı olmuşdur
**Dəyişiklik:** 07.06.2024-cü il tarixdə qeydə alınıb

**"Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsi" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 29.06.2012-ci il
**Qeydiyyat №-si:** 1112-Q40-3062
Birliyin ümumi yığıncağının protokolundan çıxarış və digər sənədlərə əsasən qanuni təmsilçisi İsmayılov Nadir Nəbi oğlu olmuşdur
**Dəyişiklik:** 07.06.2024-cü il tarixdə qeydə alınıb

**"Yerli Təşəbbüslər Mərkəzi" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 28.02.2007-ci il
**Qeydiyyat №-si:** 1107-Q17-2340
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Əlizadə İlham Hacıbaba oğlu olmuşdur
**Dəyişiklik:** 07.06.2024-cü il tarixdə qeydə alınıb

**"Qarabağ Cins Atlarının Həvəskarları Assosiasiyası" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 21.10.2005-ci il
**Qeydiyyat №-si:** 1105-Q5-1919
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Şirinov Rəşad Aydın oğlu olmuşdur
**Dəyişiklik:** 10.06.2024-cü il tarixdə qeydə alınıb

**"Regionların Sosial İqtisadi İnkişafına Dəstək" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 03.09.2008-ci il
**Qeydiyyat №-si:** 1108-Q22-2569
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Kazımova Məhluqə Şəki qızı olmuşdur
**Dəyişiklik:** 11.06.2024-cü il tarixdə qeydə alınıb

**"İqtisadi və Sosial Araşdırmalara Yardım" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 21.10.2016-cı il
**Qeydiyyat №-si:** 1116-Q56-3410
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Kərimli Əyyub Zöhrab oğlu olmuşdur
**Dəyişiklik:** 11.06.2024-cü il tarixdə qeydə alınıb

**"Müstəqil Mətbuat Mərkəzi" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 29.09.2006-cı il
**Qeydiyyat №-si:** 1106-Q13-2212
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Qarayev Elçin Xalid oğlu olmuşdur
**Dəyişiklik:** 11.06.2024-cü il tarixdə qeydə alınıb

**"Regional Medianın İnkişafına Yardım" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 22.04.2011-ci il
**Qeydiyyat №-si:** 1111-Q36-2948
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məhsimov Məhsim Sədulla oğlu olmuşdur
**Dəyişiklik:** 11.06.2024-cü il tarixdə qeydə alınıb

**"Qadın Konsensus Mərkəzi" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 26.05.2006-cı il
**Qeydiyyat №-si:** 1106-Q10-2094
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Quliyeva Aynur Camal qızı olmuşdur
**Dəyişiklik:** 11.06.2024-cü il tarixdə qeydə alınıb

**"Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyası" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 10.08.2007-ci il
**Qeydiyyat №-si:** 1107-Q19-2430
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Hacıyev Ceyhun Afil oğlu olmuşdur
**Dəyişiklik:** 13.06.2024-cü il tarixdə qeydə alınıb

**"Əlil Təşkilatları İttifaqı"**

**Qeydiyyat tarixi:** 16.04.2005-ci il
**Qeydiyyat №-si:** 1105-Q4-1720
Ümumi yığıncağın protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Rəhimli Davud Səid oğlu olmuşdur
**Dəyişiklik:** 14.06.2024-cü il tarixdə qeydə alınıb

**"Cənub Regional İnkişaf və Gender Problemləri" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 13.06.2019-cu il
**Qeydiyyat №-si:** 1119-Q67-3699
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Bəşirova Səidə Adil qızı olmuşdur
**Dəyişiklik:** 14.06.2024-cü il tarixdə qeydə alınıb

**"Turan" Vətəndaş Cəmiyyətinə Yardım ictimai birliyi**

**Qeydiyyat tarixi:** 26.05.2006-cı il
**Qeydiyyat №-si:** 1106-Q11-2124
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Babayev Yaqub Aydın oğlu olmuşdur
**Dəyişiklik:** 20.06.2024-cü il tarixdə qeydə alınıb

**"Peşəyönümlü Təhsilin İnkişafına Yardım" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 28.12.2016-cı il
**Qeydiyyat №-si:** 1116-Q57-3445
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən hazırkı hüquqi ünvanı: Bakı şəhəri, Yasamal rayonu, Hüseyn Cavid prospekti, məhəllə 577, ev 87, mənzil 335, qanuni təmsilçisi Əhmədov İlham Bəşir oğlu qolmuşdur
**Dəyişiklik:** 20.06.2024-cü il tarixdə qeydə alınıb

**"Poloniya" mədəni əlaqələrin inkişafı ictimai birliyi**

**Qeydiyyat tarixi:** 27.07.2017-ci il
**Qeydiyyat №-si:** 1117-Q60-3513
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədova Yekaterina İqorevna olmuşdur
**Dəyişiklik:** 20.06.2024-cü il tarixdə qeydə alınıb

**"Azad Müəllimlər" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 31.03.1993-cü il
**Qeydiyyat №-si:** 342
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Talıbova Pərvanə Şükür qızı olmuşdur.
**Dəyişiklik:** 20.06.2024-cü il tarixdə qeydə alınıb

**Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu**

**Qeydiyyat tarixi:** 29.07.1999-cu il
**Qeydiyyat №-si:** 1157
Qurultayın qərarı və digər sənədlərə əsasən yeni adı: "Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu" ictimai birliyi, yeni məqsədi: Milli QHT hərəkatının genişlənməsinə və potensialın gücləndirilməsinə, onların fəaliyyətinin beynəlxalq təcrübəyə və mövcud qanunvericiliyə uyğun qurulmasına,fəal koordinasiya edilməsinə, əlaqələrinin möhkəmləndirilməsinə, problemlərinin birgə həll edilməsinə kömək göstərmək yolu ilə Azərbaycan Respublikasında vətəndaş cəmiyyətinin möhkəmləndirilməsinə və inkişafına nail olmaq, yeni qanuni təmsilçisi İskəndərli Ramil Əvəz oğlu olmuşdur
**Dəyişiklik:** 21.06.2024-cü il tarixdə qeydə alınıb

**"Şamaxı Futbol Klubu" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 29.09.2017-ci il
**Qeydiyyat №-si:** 1117-Q60-3523
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Usub Elçin Arif oğlu olmuşdur
**Dəyişiklik:** 24.06.2024-cü il tarixdə qeydə alınıb

**"Gənclərin İnkişafına Dəstək" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 26.12.2007-ci il
**Qeydiyyat №-si:** 1107-Q20-2490
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Məmmədova Zəhra Qurban qızı olmuşdur
**Dəyişiklik:** 24.06.2024-cü il tarixdə qeydə alınıb

**"Azərbaycan Kamandan Oxatma Federasiyası" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 29.06.1994-cü il
**Qeydiyyat №-si:** 571
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Quliyev Anar Adil oğlu olmuşdur
**Dəyişiklik:** 24.06.2024-cü il tarixdə qeydə alınıb

**"Vətəndaş Cəmiyyətinin Regionlarda İnkişafına Dəstək" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 14.12.2010-cu il
**Qeydiyyat №-si:** 1110-Q34-2904
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Cəbrayılova Sevinc Sabir qızı olmuşdur
**Dəyişiklik:** 25.06.2024-cü il tarixdə qeydə alınıb

**"Psixoloji Xidmət və Tədqiqatlar Mərkəzi" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 28.12.2016-cı il
**Qeydiyyat №-si:** 1116-Q57-3450
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Paşayeva Təranə Qəzənfər qızı olmuşdur
**Dəyişiklik:** 25.06.2024-cü il tarixdə qeydə alınıb


| | | | |
|---|---|---|---|
| **Təsisçi:** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi **Buraxılışa məsul:** Rasim Həsənov | **Ünvan:** Bakı-AZ 1073. İnşaatçılar pr-ti, 1. Tel: 537-06-40 Faks: 498-59-31 | Qəzetdə qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatlar dərc olunur. Qəzet ayda bir dəfə çıxır. | Reyestr N 769 |